Qeyri-rəsmi tərcümə

**Sudan Respublikası**

**Milli Assambleya**

**Xarici Əlaqələr Komitəsi**

# Xocalı qırğını ilə bağlı Bəyanat

1992-ci ilin fevral ayında Xocalı rayonunda Azərbaycanlı mülki əhalinin kütləvi şəkildə qırılmasını 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İslam Zirvə Konfransının Yekun Kommünikesinə uyğun olaraq soyqırım aktı və insanlığa qarşı cinayət kimi tanıyaraq;

İslam Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin Xocalı qurbanlarına dəstəyin göstərilməsi üçün Gənclər forumunun təsis edilməsi ilə nəticələnən ümumi mövqeyindən çıxış edərək;

1993-cü ildə qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin müddəalarını diqqətlə nəzərdən keçirərək;

2011-ci il 18 yanvar tarixində İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin Abduhabidə (Birləşmiş Ərəb Əmirlikləri) qəbul etdiyi qərarları nəzərə alaraq;

Sudan Milli Assambleyasının 1992-2014-cü illərdə Xocalı ilə bağlı regional və beynəlxalq parlament strukturlarında tutduğu mövqeyə uyğun olaraq,

Xarici Əlaqələr Komitəsi qərara alır:

1. 1992-ci ilin fevral ayında Xocalı rayonunun sakinlərinin kütləvi şəkildə qırılmasını pisləyir.
2. Azərbaycan Respublikasına qarşı təcavüzü pisləyir və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüquqa əsasən güc tətbiq etməklə ərazi əldə edilməsinin qəbuledilməz olduğunu bir daha təsdiq edir.
3. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə ciddi şəkildə əməl edilməsini və Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ regionu da daxil olmaqla Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən dərhal, tam şəkildə və heç bir qeyd-şərt olmadan çıxarılmasını tələb edir.
4. Xocalı qurbanlarının yaxınlarının onlara vurulan maddi və mənəvi ziyana görə ədalətli və hüquqi əsaslarla təzminat alması ilə bağlı mövqeyini dəstəkləyir.
5. Azərbaycan və Ermənistan arasında mübahisənin sülh yolu ilə həll edilməsinə çağırır.
6. Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət etməyə çağırır.

**Tarix: 1 sentyabr 2014-cü il**
**Məkan: Xartum - Sudan**